Elm: xüsusi buraxılış .- 2025.-18 noyabr (№36-37).- S.20.

# *Vu Thuy Trang:*
# "AMEA Vyetnamdan olan alimlər üçün məşhur və nüfuzlu Akademiyadır"

**Akademiya elm öyrənməyin simvoludur və bizim üçün çox şərəfli və fəxrdir ki, biz Azərbaycan Milli Elmlər Akademiyasını məhz belə əlamətdar dövrdə, 80 illik yubileyində ziyarət etmişik.**



Bu sözləri AMEA-nın 80 illik yubileyi çərçivəsində ölkəmizə səfər etmiş Vyetnam Sosial Elmlər Akademiyasının Avropa və Amerika Araşdırmaları İnstitutunun Rusiya və MDB Tədqiqatları Mərkəzinin direktoru PhD Vu Thuy Trang deyib.

Azərbaycan Milli Elmlər Akademiyası biz Vyetnamdan olan alimlər üçün məşhur və nüfuzlu Akademiyadır. Bu yubiley yığıncağı bizim üçün əlamətdar oldu. Vyetnam İctimai Elmlər Akademiyası üçün Azərbaycan Milli Elmlər Akademiyası ilə sıx əlaqələr qurmaq və münasibətləri möhkəmləndirmək çox vacibdir.